COP29 Baku Azerbaijan



# COP29 Azərbaycan Əməliyyat Şirkəti beynəlxalq ISO 45001 sertifikatına layiq görülüb



**COP29 Azərbaycan Əməliyyat Şirkəti müstəqil nəzarət, audit, sertifikatlaşdırma və risklərin idarə olunması sahəsində ixtisaslaşmış qlobal "Bureau Veritas Certification Holding SAS" şirkətinin apardığı xarici audit prosesi nəticəsində beynəlxalq ISO 45001 idarəetmə sistemi sertifikatını əldə edib.**

Sertifikat oktyabrın 2-də Azərbaycanda səfərdə olan "Bureau Veritas" şirkətinin rəsmisi Nahla Abid tərəfindən COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova ilə görüş zamanı təqdim olunub.

COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat xidmətindən verilən məlumata görə, görüşdə tərəflər təhlükəsiz iş mühitinin qurulmasının əhəmiyyəti barədə müzakirələr aparıb. N.Abid sözügedən beynəlxalq sertifikatın əldə edilməsinin COP29 Azərbaycan ƏŞ tərəfindən dayanıqlı strateji yanaşma və əməyin mühafizəsi tədbirlərinin yüksək səviyyədə təmin olunmasının nəticəsi olduğunu qeyd edib. O, Əməliyyat Şirkətinin bu sahədə beynəlxalq standartlara uyğun fəaliyyət göstərməsinin təqdirəlayiq olduğunu bildirib. N.Carçalova bu nailiyyətin davamlı olaraq iş şəraitinin təkmilləşdirilməsinə və təhlükəsizliyin daha da artırılmasına töhfə verəcəyini vurğulayıb.

Qeyd edək ki, ISO 45001 standartı müəssisələrdə qəzaların qarşısının alınması, əməyin mühafizəsi və işçilər üçün təhlükəsizlik şəraitinin təmin olunması məqsədilə tətbiq edilən qlobal səviyyəli idarəetmə sistemidir. Bu standartın məqsədi iş mühitinin sağlam və təhlükəsiz olmasını təmin etməklə yanaşı, əməyin təhlükəsizliyini artırmaq və mümkün riskləri minimuma endirməkdir. Bu sertifikatla COP29 Azərbaycan Əməliyyat Şirkəti işçilərinin sağlamlığını və təhlükəsizliyini təmin etmək üçün beynəlxalq standartlara uyğun sistemlər tətbiq etdiyini bir daha təsdiq edir.

**M.KAMAL,**
**“Respublika”.**